# UNESCO-nun mənzil-qərargahında Mövlana Cəlaləddin Rumiyə həsr edilmiş sərgi açılıb

**UNESCO-nun mənzil-qərargahında Şərqin dahi mütəfəkkiri, qardaşlığı bütün insanlara tövsiyə edən və buna görə də bütün dinlər və millətlər tərəfindən təqdir edilən böyük şəxsiyyət Mövlana Cəlaləddin Ruminin anadan olmasının 815 illiyi münasibətilə sərgi açılıb.**



Sərgidə XIII əsrdən dünyaya tolerantlıq dərsi verən Ruminin müxtəlif dillərə tərcümə olunmuş kitabları, miniatür sənət əsərləri nümayiş olunur. Cəlaləddin Ruminin müxtəlif dillərdə böyük afişalarda yazılmış müdrik kəlamları, şeirlərindən parçalar ziyarətçilərin diqqətini daha çox cəlb edir. Dövrümüzdə böyük əhəmiyyət daşıyan mədəniyyətlərarası dialoqun düsturunu yazmış Mövlana Cəlaləddin Ruminin bu sahədə təlimlərindən çox şey öyrənilməlidir.

Şərq islam dünyasının görkəmli klassikinin təxminən 26 min beytdən ibarət olan "Mənəviyyat məsnəviləri" və "Məsnəviye-Şərif" adlandırılan qiymətli didaktik xarakterli hikmət xəzinəsi olan poemasının əlyazması 6 dəftərdən ibarətdir. Dünya ədəbiyyatının incisi sayılan bu əsərdə sufiliklə bağlı elmi və əxlaqi fikirlər kiçik, lakin yaddaqalan ibrətamiz əhvalatlar şəklində təqdim olunur.

Azərbaycan.- 2024.- 9 iyun, № 121.- S.11.